# Ən böyük mükafat—oxucu sevgisi

(Əvvəli 5-ci səhifədə).

Qəzet 1933-cü ildən nəşr olunur və xalq şairi S.Vurğundan götürülən bir misranı özünə epiqraf seçib: «Əl işdən soyumaz, ürək arzudan...». 2300-dən artıq tirajla çap olunan qəzetin redaktoru Oqtay Məmmədovdur.

Mətbuat tariximizi diqqətlə izləyənlər bilirlər ki, rayon qəzetləri vaxtı ilə nə qədər ideoloji xarakterə, partiyalılığa xidmət etsə də hər halda onların yerli həyatın inkişafındakı rolu danılmazdır. Bu gün isə həmin qəzetlər söz azadlığı, plüralizm şəraitində fəaliyyət göstərir deyə, onların yerli həyatın inkişafında olan rolu çox böyükdür. «Qəbələ» qəzeti özünün nömrələrində çoxplanlı tematikası, mövzu zənginliyi, ictimai maraq kəsb edən informasiyaları ilə rayon sakinlərinin hörmətini qazanıb. Rayonun təhsil, səhiyyə, mədəniyyət məsələləri, sosial problemlər onun səhifələrində peşəkar jurnalistlərin müraciət etdiyi əsas mövzulardır. Qəzet rayon icra hakimiyyətinin xalqa müraciət tribunasıdır.

Əlbəttə, Qəbələ rayonunun müasir inkişaf tempi nəinki Azərbaycanda, habelə regionda çox böyük hadisə hesab olunur. «Qəbələ» öz fəaliyyətində bu inkişafın parametrlərini oxucuya çatdırır. Yerli oxucu qəzetin ünvanlandığı əsas adresatdır. Respublika qəzetlərindən fərqli olaraq rayon oxucusu özünü bu qəzetdə daha çox görür. Odur ki, qəzetin həm jurnalistləri, həm də rayon rəhbərliyi yerli əhalini daha çox diqqətdə saxlayır.

Özünün başlanğıc tarixini yanvardan başlayan qəzet hər ilin başlanğıcında yazılarını, ənənəvi olaraq yeni ilə həsr edir. Bu münasibətlə də bir sıra bayram əhval-ruhiyyəli yazılar dərc edir. Qəzet açılışını hər il bayram təbrikləri ilə açır. Bu ilki 8 yanvar 2015-ci il tarixli nömrəsindəki “Qəbələdə bayram şənlikləri” adlı məqaləsində, 31 dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik günü kimi qeyd olunmasında Heydər Əliyevin xidmətlərinin tarixini vurğulayan Qəbələ rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayon ictimaiyyətini yeni il münasibəti ilə təbrik edir, rayonun müxtəlif sahələrdə qazanılmış uğurlarından bəhs edir. Bütün bunlarla bərabər qəzetdə bayram əhval-ruhiyyəli yazılar, poetik parçalar verilir.

İctimai-siyasi tədbirlərlə yanaşı, rayon miqyasında keçirilən vacib tədbirlərin də qəzet səhifəsinə düşməsi, oxuculara çatdırılması faydalıdır. Həmin tədbirlərin sərlövhələrinə diqqət yetirmək, onların vacibliyini dərk etmək üçün kifayətdir: «Dövlət yanğın nəzarəti işinin təşkilinə dair regional seminar», «Hərbi vətənpərvərlik tərbiyəsi-günün vacib məsələsi», «Udi dilində ilk ana dili dərsliyinin təqdimatı», «Voleybol üzrə xatirə turniri», «Futbol», «İstedadlı gənclərin axtarışında», «Əhalinin tibbi müayinəsi başa çatmaq üzrədir», «Tarixi Qəbələ bu gün», «Həsən bəy Zərdabi ilk milli mətbuatın banisidir» rubrikasından xəbərlər və s. Belə materiallar gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində xüsusi əhəmiyyətə malikdir. Bu materiallarda da mətbuatdan tələb olunan yenilik, operativlik, müasirlik hissi güclüdür.

Qəzet Qəbələdə keçirilən bir sıra beynəlxalq tədbirlərin oxuculara çatdırılmasında da yaxından iştirak edir.

«Qəbələ» qəzeti bu baxımdan region qəzetləri içərisində özünün mövzu aktuallığına, peşəkarlığına, dilüslub xüsusiyyətlərinə görə öncül yerlərdən birini tutur.

**«Qəbələ»yə daha çox oxucu sevgisi arzusu ilə:**
**Afaq SADIQOVA,**
**Bakı Dövlət Universiteti qəzet laboratoriyasının müdiri.**

# Səyyar “ASAN xidmət” Qəbələdə

Səyyar “ASAN xidmət” oktyabrın 28-dən Qəbələdə vətəndaşlara səyyar formada xidmət göstərməyə başlamışdır. Bu xidmətlərə notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının




dövlət qeydiyyatı, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, əmək pensiyalarının təyin edilməsi, mənzillər üzərində mülkiyyət hüquqlarının ilkin və təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi, daşınmaz əmlakın təsvirinə, dövlət qeydiyyatına alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayışların verilməsi, fərdi yaşayış evləri üzərində mülkiyyət hüquqlarının təkrar dövlət qeydiyyatına alınması barədə çıxarışların, texniki pasportların verilməsi daxildir.

Səyyar “ASAN xidmət”in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır.

# Regional elmi-praktik konfrans

İsmayıllı Rayon İcra Hakimiyyəti, Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu və Gənc Politoloqlar Mərkəzinin təşkilatçılığı ilə 2015-ci il oktyabrın 29-da İsmayıllıda “Gənc jurnalistlərin ictimai-siyasi mövzular üzrə ixtisaslaşması” mövzusunda elmi-praktik konfransı keçirilmişdir.

Konfransın işində Azərbaycan Respublikası Prezidenti Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri, YAP Siyasi Şurasının üzvü Qafar Əliyev, İsmayıllı RİH-nin başçısı Mirdaməd Sadıqov, RİH başçısının müavini Sevil Əhmədova, “Respublika”, ”İki Sahil”, ”Ekspress” qəzetlərinin, ”Birlik” jurnalının, Zaqatala, Balakən, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Şamaxı, Qobustan bölgə qəzetlərinin əməkdaşları, bir sıra saytların nümayəndələri, 15 rayonun gənc jurnalistləri iştirak etmişlər.

Konfransda Gənc Politoloqlar Mərkəzinin sədri İlkin Əliyev giriş sözü söyləmiş, konfransın məram və məqsədi barədə məlumat vermişdir.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı, iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi Mirdaməd Sadıqov qonaqları salamlamış, bu cür tədbirlərin keçirilməsinin böyük əhəmiyyət daşıdığını qeyd etmişdir. Sonra o, 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələr, Azərbaycanın dinamik və tarazlı inkişafı sahəsində ölkə Prezidentinin apardığı uğurlu siyasət barədə real rəqəmlər və faktlarla geniş məruzə etmişdir.

Məruzə ilə çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Qafar Əliyev sayca 5-ci olan parlament seçkilərinin şəffaf və demokratik şəkildə keçiriləcəyini qeyd etmiş, gənc jurnalistlərin ictimai-siyasi mövzular üzrə ixtisaslaşması layihəsinin, hüquqi-demokratik cəmiyyətin fəal iştirakçısı olan gənclərin ictimai-siyasi biliklərinin artırılması sahəsindəki rolundan danışmışdır.

“Respublika” qəzetinin müxbiri Samir Zeynalov, “İki Sahil” qəzetinin müxbiri Ceyhun Piriyev, “Ekspress” qəzetinin şöbə müdiri Namiq Məmmədli, “Politika.az” saytının redaktoru Vasif Həsənli, “Birlik” jurnalının baş redaktoru İlqar İlkin, Gənc Politoloqlar Mərkəzinin sədri İlkin Əliyev, Mərkəzin sədr müavini Elşən Orucov və başqaları “Ölkəmizin sosial-iqtisadi vəziyyəti ilə əlaqədar mövzuların obyektiv işıqlandırılması”, “İnformasiya cəmiyyətində media və onun əsas missiyası, KİV-nin hüquqi tənzimlənməsi, jurnalistlərin peşə davranış qaydaları və normaları”, “Vətənpərvərlik tərbiyəsi və tarixi mövzuların işıqlandırılması, tarixi yaddaşın möhkəmləndirilməsində KİV-nin rolu”, “Hüquqi-demokratik cəmiyyətdə qanunçuluğun təbliği sahəsində KİV-lərin rolu” və s. mövzularda çıxış etmişlər.

Konfransda mövzular ətrafında müzakirələr aparılmış, İsmayıllı və ətraf rayonların KİV-də çalışan gənc jurnalistlərin çıxışları dinlənilmiş, sualları cavablandırılmışdır. Jurnalistlərə sertifikatlar verilmişdir.

Konfransı İsmayıllı RİH başçısının müavini Sevil Əhmədova yekunlaşdırmış, tədbirin təşkilatçılarına, qonaqlara və gənc jurnalistlərə rayon rəhbərliyi adından minnətdarlığını bildirmişdir.

**Oqtay MƏMMƏDOV.**

# Bacarıqlı usta

Hər hansı bir sənət sahibi olursa-olsun əgər o, öz işini sevirsə, bacarıqlı sənətkar olur. Nizami Məmmədhüseynov məhz belə sənətkarlardandır. Nizami Böyük Pirəli kəndində dünyaya göz açıb. Orta təhsilini əla qiymətlərlə kənd orta məktəbində başa vurub. 1989-cu ildə o, Gəncə Elektron Sənaye texnikumuna daxil olub. Hərbi xidmətdə də fərqlənən Nizami Ştabda qeydiyyatçı vəzifəsini icra edib.

Nizami Məmməhüseynov 2002-ci ildən Qəbələ Diaqnostika-Mərkəzinin yaxınlığında yerləşən məişət avadanlıqlarının təmiri sexində usta işləyir. Onun təmir etdiyi soyuducular, paltaryuyan maşınlar və sair məişət avadanlıqları müştəriləri razı salır. Nizaminin bacarığına ona iş gördürdükdən sonra daha yaxından bələd oldum. Səmimi və gülərüz bir usta olan bu insanın bacarığına ona iş gördürən inanar və ondan razı qalar.

**Emin BARATOĞLU.**